# Azərbaycanın iqtisadi uğurları tarixi nailiyyətdir

## *Prezident İlham Əliyev ölkəmizin sosial-iqtisadi inkişafını belə dəyərləndirdi*

"Biz son 15 il ərzində iqtisadi islahatlar aparmışıq və iqtisadi məsələlərə xüsusi diqqət yetirmişik. Çünki mən dəfələrlə demişəm və həyat bunu göstərir, ancaq iqtisadiyyatı güclü olan ölkələr müstəqil siyasət apara bilərlər. Əgər sən kimdənsə asılısansa, - ya kreditdən asılısan, ya başqa dövlətdən asılısan, - heç vaxt, sözün əsl mənasında, müstəqil siyasət aparmaq iqtidarında olmayacaqsan. Ona görə biz çalışırdıq ki, iqtisadi müstəqilliyə çataq və buna da nail olduq. Biz indi heç bir kreditə möhtac deyilik, özümüz kreditlər veririk. Bizim dövlət borcumuz ümumi daxili məhsulumuzun 20 faizini təşkil edir. Mən qarşıya vəzifə qoymuşam və biz gələcək illərdə dövlət borcumuzu daha da aşağı səviyyəyə salmalıyıq. İqtisadiyyat son 15 il ərzində 3,2 dəfə artıbdır. Bu, çox böyük göstəricidir. Əlbəttə ki, bu göstəricinin tərkibində neft amili xüsusi yer tutur. Ancaq bununla bərabər, bizim qeyri-neft ixracımız 15 il ərzində dörd dəfədən çox artıbdır. Bu da onu göstərir ki, bizim islahatlarımız böyük səmərə verir. Sənaye istehsalı 2,6 dəfə artmışdır. Valyuta ehtiyatlarımız 24 dəfə artmışdır, bu gün 44 milyard dollara bərabərdir. Ölkəmizə 230 milyard dollardan çox sərmayə qoyulub. Ölkəmizdə çox gözəl investisiya iqlimi vardır. Xarici və yerli sərmayə ölkəmizə bundan sonra da qoyulacaqdır. Davos Ümumdünya İqtisadi Forumu Azərbaycanı rəqabətqabiliyyətliliyinə görə 35-ci yerə layiq görübdür. İnkişafda olan ölkələr arasında inklüziv inkişaf indeksinə görə biz üçüncü yerdəyik. Yəni bu göstəricilər özlüyündə hər şeyi açıq-aydın bildirir, onu göstərir ki, iqtisadi sahədə əldə edilmiş uğurlar, nailiyyətlər tarixi nailiyyətlərdir".

Bu sözləri Prezident İlham Əliyev aprelin 18-də andiçmə mərasimindəki çıxışında söyləmişdir. Həqiqətən, Azərbaycan sosial-iqtisadi sahədəki inkişafına görə bu gün nəinki regionda və MDB məkanında, hətta dünyada seçilən ölkələrdən sayılır. Belə olmasaydı, Azərbaycan nüfuzlu beynəlxalq reytinq agentliklərinin hesabatlarında ilbəil mövqeyini yaxşılaşdırmazdı. Belə olmasaydı, bu gün də xarici investorlar ölkəmizə ciddi maraq göstərməzdilər.

Bunların reallıq olduğunu sübut etmək üçün yaxın iqtisadi tariximizə qısa nəzər salaq: məlum olduğu kimi, ötən əsrin 90-cı illərinin əvvəlində müstəqilliyini bərpa etdikdən sonra böhrandan çıxmaq üçün Azərbaycanda ciddi iqtisadi islahatlar həyata keçirildi. Bunun ardınca yaradılan münbit investisiya mühiti sayəsində ölkəyə xarici investisiya axını başladı. Uğurlu neft siyasəti "Əsrin müqaviləsi"nin imzalanması ilə nəticələndi. Bununla ölkəmizin iqtisadi inkişafında neft sənayesi lokomotiv rolunu oynadı. Neft sektoru ilə yanaşı, qeyri-neft sahəsində də irəliləmə müşahidə olundu.

Sonrakı illər "Əsrin müqaviləsi"ndən əldə edilən vəsait ölkənin ümumi inkişafına sərf edildi. İlk növbədə ümumi inkişafı təmin edən infrastruktur layihələrin icrası həyata keçirildi. Bu zaman təkcə iqtisadi inkişaf üçün hədəf seçilmədi, ölkənin sosial sahələrinin inkişafına da böyük sərmayələr yatırıldı.

Azərbaycanın əldə etdiyi böyük nailiyyətlər dünya dövlətlərinin və beynəlxalq təşkilatların da diqqətindən yayınmadı. Müxtəlif beynəlxalq reytinq təşkilatları ölkəmizdə olan inkişafı yüksək dəyərləndirdi. Həmin tendensiya bu gün də davam edir. Davos Dünya İqtisadi Forumunun son hesablamalarına əsasən, Azərbaycan qlobal rəqabətqabiliyyətliliyinə görə 35-ci yeri tutur. Elə həmin Davos Forumunun inklüziv inkişaf indeksinə görə ölkəmiz inkişaf etməkdə olan ölkələr arasında üçüncü yerdə qərarlaşıb. Azərbaycandan irəlidə yalnız 30 inkişaf etmiş ölkə və 2 inkişaf etməkdə olan ölkə var. Davos Dünya Forumunun verdiyi bu qiymət Azərbaycanın nəyə nail olduğunu bir daha təsdiq edir. Buna iqtisadiyyatımızı yüksək dərəcədə şaxələndirməklə nail olmuşuq. Beləliklə, Azərbaycanda işsizlik təxminən beş faiz səviyyəsində, yoxsulluq 4,5 faiz həddindədir. Bütün bunlar son illər həyata keçirilən uğurlu sosial-iqtisadi siyasətin nəticəsidir.

Qeyd edildiyi kimi, Azərbaycan dünyada münbit investisiya mühitinə görə seçilən ölkələrdəndir. Belə ki, ölkəmizdə mövcud qanunvericilik bazası bu gün xarici sərmayələrin qorunmasına tam zəmanət verir. Odur ki, əcnəbi sahibkarlar milli iqtisadiyyatımıza investisiya qoymaqdan çəkinmirlər. Dünyadakı maliyyə və iqtisadi sıxıntılara baxmayaraq, yenə də xarici sahibkarlar Azərbaycan iqtisadiyyatına sərmayə yatırmaqda davam edirlər. Təsadüfi deyil ki, uzun illərdir Azərbaycan xarici sərmayənin qoyuluşu səviyyəsinə görə MDB məkanında liderdir. Son 15 ildə Azərbaycan iqtisadiyyatına 230 milyard dollardan artıq sərmayə yatırılması bunun real göstəricisidir. Cari ilin birinci rübündə isə 3,5 milyard dollar sərmayə qoyulub ki, bunun da böyük əksəriyyəti xarici investisiyadır.

Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında ölkəmizdə olan münbit investisiya mühitini vurğulayaraq demişdir: "Mən onların arasında xüsusilə investisiya təşviqi mexanizmini qeyd etmək istəyirəm. Biz bu mexanizmin tətbiqinə bu yaxınlarda start vermişik və qısa müddət ərzində çox gözəl nəticələr əldə edilib. Təkcə bu ilin birinci rübündə 28 investisiya təşviqi sənədi və bu günə qədər cəmi 257 investisiya təşviqi sənədi verilmişdir, 229 sahibkar bu imkanlardan faydalanıb. Bu layihələrə qoyulacaq və artıq qoyulmaqda olan sərmayənin həcmi 2,3 milyard manatdır. Baxın, əgər biz investisiya təşviqi mexanizmini işə salmasaydıq, bu vəsait ölkə iqtisadiyyatına qoyulmayacaqdı".

Bu gün Azərbaycanda iqtisadi əhəmiyyətli layihələrlə yanaşı, sosial layihələrin icrasına da ciddi diqqət yetirilir. Bunun sayəsində son 15 ildə 30-dan çox elektrik stansiyası istifadəyə verilib və nəticədə Azərbaycan elektrik enerjisi idxal edən ölkədən ixrac edən ölkəyə çevrilib. Qazlaşmanın səviyyəsi ilin sonunadək 95 faizə çatacaq. Ötən 15 il ərzində 3100-dən çox məktəb tikilib. Bu da bütün məktəb fondunun 80 faizi deməkdir. Eyni zamanda bu dövrdə 600-dən çox tibb müəssisəsi inşa olunub və ya əsaslı təmir edilib, 15 min kilometr yol çəkilib. Bu yolların bir hissəsi magistral, bir hissəsi yerli əhəmiyyətli yollardır. Son dövrlər kəndlərarası yolların tikintisinə də diqqət artıb. Həmin yolların çəkilməsi minlərlə kənd sakininin gediş-gəlişini asanlaşdırmaqla yanaşı, yetişdirdikləri məhsulu rahat şəkildə bazara çıxarmalarına imkan yaradıb. Həmçinin əhalinin həyat şəraitinin yaxşılaşdırılması üçün məşğulluğun təminatı diqqət mərkəzində saxlanılıb. Həyata keçirilən iqtisadi siyasət sayəsində 1milyon 500 min iş yeri açılıb, işsizliyin səviyyəsi 5 faizə endirilib.

Dövlətin sosial sahədə həyata keçirdiyi layihələrdən biri də əhalinin aztəminatlı təbəqəsinin sosial mənzillərlə təmin edilməsidir. Məqsəd indiki bazar qiymətləri ilə müqayisədə sərfəli və uzunmüddətli kredit vasitəsilə vətəndaşların mənzil əldə etməsinə imkan yaradılmasıdır. Bunun üçün Yasamal rayonunda 11,6, Suraxanı rayonunun Hövsan qəsəbəsində isə 20 hektar torpaq sahəsi ayrılıb. 2016-cı il dekabrın 24-də Yasamal Yaşayış Kompleksinin, 2017-ci il dekabrın 24-də isə Hövsan Yaşayış Kompleksinin təməli qoyulub.

Yasamal Yaşayış Kompleksində çoxmənzilli 29 yaşayış binasında 1843 ailənin mənzillə təmin edilməsi planlaşdırılıb. Bu da 6 mindən çox insanın mənzil probleminin həlli deməkdir. Hazırda kompleksdə tikinti işləri sürətlə həyata keçirilir, 19 binada konstruksiya və hörgü işləri yekunlaşdırılaraq təmir işlərinə başlanılıb. Cari ilin iyun ayında ilk mənzillər tam təmirli, mətbəx mebeli ilə təchiz edilmiş vəziyyətdə təhvil veriləcək. Eyni zamanda bu şəhərcikdə 960 şagirdlik orta təhsil məktəbi və 240 yerlik uşaq bağçası tikilir.

Bütün bunlar Azərbaycanda vətəndaşın mənafeyinin hər zaman üstün tutulduğunu bir daha sübut edir. Belə hal ölkədə ictimai-siyasi sabitliyi, ictimai-siyasi sabitlik isə xarici sərmayə qoyuluşunun şərtləndirir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

Azərbaycan.- 2018.-19 aprel- S.14.